# Zəmanəmizdə gündəmə gətirilən köhnə uzaqgörənlər

Son zamanlar dünyada müharibələr baş verir, zəlzələlər, fəlakətlərə səbəb olan daşqınlar olur, ayrı-ayrı ölkələrdə faciələr gətirən iğtişaşlar törədilir ki, hətta ölkə rəhbərinin məmləkətdən qovulması ilə nəticələnir. Hər dəfə də Nostradamusun, daha sonra Vanqanın adları ortaya atılır, bu barədə gen-bol danışılır, müxtəlif sosial şəbəkələrdə, bəzən də mətbuat səhifələrində müzakirələr, əksər hallarda da bir-birinə zidd olan qənaətlər ortaya qoyulur. Məsələ belədir ki, tarixə nəzər saldıqda görürük ki, bu bədbəxt hadisələr, təbii fəlakətlər dünyada həmişə baş vermişdir. Elə götürək öz ölkəmizi. Məsələn, 1667-ci ildə Şamaxıda elə güclü zəlzələ baş vermişdir ki, şəhər və ətraf yaşayış məntəqələrində 80 min nəfər həlak olmuşdu. 1859-cu ildə isə zəlzələ Şamaxını elə bir dəhşətli şəkildə dağıtmışdı ki, məcbur olub quberniya mərkəzini Şamaxıdan Bakıya köçürməli olmuşlar. Kədərlidir ki, otuz üç il sonra Şamaxıda yenidən zəlzələ olmuş və şəhəri tamamilə dağıtmışdır. Məlum olduğu üzrə belə zəlzələlər 1948-ci ildə Aşqabadda, 1966-cı ildə Daşkənddə, 1970-ci ildə Dağıstanda, 1988-ci ildə Ermənistanda... baş vermişdir. Bu hadisələri sadalamağımın səbəbi ondan ibarətdir ki, yaxın keçmişdə baş verən o faciəvi təbii fəlakətlər olan dövrün mətbuat vasitələrinə nəzər yetirir və orada hadisələrə Nostradamusun, ya da Vanqanın gələcəkdən xəbərvermələri əsas götürülmür və onlara istinad edilməsinə rast gəlmirik.

Maraqlıdır ki, sadaladığımız təbii fəlakətlər və müharibələr o dövrlə müqayisədə çox, ya da az sayda zəmanəmizdə də baş verdiyinin şahidi oluruq. Bu zaman qələmlər hərəkətə gəlir, söhbətlər genişlənir və nəticə də belə olur ki, bunu Nostradamus demişdi, ya da Nostradamusun dediklərində bir şey tapılmır, bu zaman Vanqaya istinad olunur. Belə olan halda gəlin tanış olaq görək adı dillər əzbərinə çevrilmiş, dünya ölkələrinin baş kitablarında adı çəkilən Nostradamus kimdir, hansı peşənin sahibidir. Bunun üçün 1991-ci ildə Moskvada iki cilddə nəşr olunan "Böyük ensiklopediya lüğəti"nə baxmaq da kifayətdir. Burda "Nostradamus" məqaləsində deyilir ki, "Nostradamus (1503-1566), Fransa həkimi və münəccimidir (göy cisimlərinin vəziyyət və hərəkətinə əsasən gələcəkdən xəbər verən şəxs; astroloq R.M.). O, birinci nəşri 1555-ci ildə işıq üzü görmüş, Avropa tarixinin gələcək hadisələrini ehtiva edən "Stoletiy" adlı rübai - dördlükləri ilə məşhurlaşmışdır".

İndi baxaq görək bu rübai - dördlüklər barədə dünya alimləri nə deyir? Bu yaxınlarda "BAKU ART" saytında "Nostradamus haqqında maraqlı faktlar" sərlövhəli redaksiya məqaləsi təqdim olunub. Yazıda belə cümlələr də var: "Nostradamus 16-cı əsrdə yaşayan astroloq, kahin, münəccim və ya bir falçıdır. Tarixdə bir çox insanın gələcəklə bağlı xəbərlər verdiyi məlumdur. Belələrini peyğəmbərlər və kahinlər kimi iki qrupa ayırmaq olar. Peyğəmbərlər bir möcüzə olaraq gələcək haqqında məlumatlar verib və onların dedikləri eynilə düz çıxıb. Zamanı yaradan Allah göndərdiyi peyğəmbərləri insanlara təsdiq etdirmək üçün onlara möcüzəli bir şəkildə gələcək haqqında xəbərləri bildirib. Kahinlər isə bunu özlərinə bir məslək, sənət olaraq seçiblər. İnsanların zəif cəhətlərindən faydalanıb, şöhrətə yiyələnib və maddi mənfəətlər əldə ediblər. Bu mövzuda ciddi tədqiqatları ilə tanınan Erik Russel kahinlikdən (gələcək haqqında xəbərvermə) bəhs edir: "Avropalı astroloqlar gələcəkdə baş verəcək bir daşqından xəbər verərək: "Planetlər balıq bürcündə bir yerə gəldikləri zaman bütün dünya su altında qalacaq", - deyirlər. Hər kəs bundan qorxmağa başlayır. Bəzi insanlar bu daşqından qorunmaq üçün qayıq belə alırlar. Onların dedikləri zaman gəlib çıxır, amma heç bir daşqın olmur. Məşhur tədqiqatçılardan Cames Laverin ifadələri isə daha maraqlıdır: "Onun (Nostradamusun R.M.) yazıları şer və ədəbiyyat qaydalarına uyğun gəlməyən nizamsız, uydurmalarla dolu olan mənasız sözlər yığınıdır. Şeirlərindən doğru məna çıxarmaq mümkün deyil".

Burda Məhəmməd peyğəmbərin (s) bir hədisində deyilən sözlər yada düşür: "Bütün münəccimlər yalançıdır". Bu sözləri fransız öncəgörücüsü, əczaçı və kimyagər Mişel Nostradamusa da, adətən gələcəyi qabaqcadan gördüyünü iddia edən bolqar mistik şəfaçı Baba Vanqa kimi tanınan xanıma da ünvanlamaq düzgün olar. Amma bu adamlarda müəyyən dərəcədə qeyri-adi duyma, uzaqgörmə qabiliyyəti olduğunu inkar etmək də olmaz. Onların hər ikisi haqqında yüzlərlə məqalə, çoxlu sayda kitab yazılmışdır. Onlara inananlar da var, inanmayanlar da. Necə deyərlər, bu adamları, hər kəs öz təfəkkürü, öz düşüncəsi, şəxsi mövqeyi və təbii ki, alimlər isə araşdırmaları çərçivəsində qiymətləndirir. Məsələn, Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, Azərbaycan Ağsaqqallar Şurası İdarə Heyətinin üzvü, görkəmli ədəbiyyatşünas, folklorşünas, publisist, yazıçı və tərcüməçi, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev on il araşdırma aparmış və 2007-ci ildə "Nostradamusun möcüzəli aləmi" adlı kitabını nəşr etdirmişdir. Bununla bağlı hörmətli professor bir neçə dəfə müsahibə verib, araşdırmalarının doğru olduğunu bir daha oxucu diqqətinə çatdırıb. 6 dekabr 2013-cü il tarixdə "Bölgə Xəbər.-com" saytına verdiyi "Nostradamusun Azərbaycan haqqında dedikləri" başlıqlı müsahibəsində Qəzənfər Paşayev vurğulayır ki, "Kitabımda da qeyd etmişəm, Mişel 2011-ci ildə Suriyada müharibə başlayacağını və 2016-cı ildə bitəcəyini, 2015-ci ildə Rusiyanın güclənəcəyini, bu istiqamətdə xeyli qan tökəcəyini, 2025-ci ildə isə Rusiyanın çox güclü dövlətə çevriləcəyini bildirib". 13 fevral 2023-cü ildə "525.az" saytında dərc olunmuş "Nostradamusun görücülüyü və bu günümüz" sərlövhəli müsahibəsində Qəzənfər müəllimin heyranlıqla dediyi fikirlər də var: "Adamı heyrətə gətirən odur ki, görücü sanki müasirimiz olub. Bizimlə bərabər bu ağrılı-acılı olayları yaşayıb, müşahidə edib. Nostradamus Sovet hakimiyyətinin 73 il 7 ay çəkəcəyini də peyğəmbərcəsinə, tam dəqiqliyi ilə göstərmişdir...".

Son illərdə Baba Vanqanın adı da çox hallanır. Onunla bir çox məşhurların görüşməsi, onun əvvəlcədən dediklərinin doğru çıxması, doğru çıxmaması da əksər yazılarda açıqlanır. Vanqa haqqında da bir çox tədqiqatçılar araşdırmalar aparıb və müxtəlif qəzet və jurnallarda, sosial şəbəkələrdə yazılar dərc etdiriblər. Nəticə yenə də, dediyimiz kimi - həqiqət də yer alır, yalan da. Birinci Rusiya prezidenti Boris Yeltsinin mətbuat katibi Sergey Medvedyev 31 yanvar 2008-ci il tarixdə "Komsomolskaya Pravda" (kp.ru) saytına verdiyi "Vanqa Yeltsinlə görüşüb ona gələcəyi söyləmək istəyirdi" sərlövhəli müsahibəsində açıqlama verərək bildirib ki, 1996-cı ildə Vanqanın qohumları ona telefonla xəbər ediblər ki, o, Boris Yeltsinlə görüşüb gələcək hadisələr barədə gördüklərini söyləmək istəyir. S.Medvedyev bu barədə Yeltsinə məlumat verib, prezident Vanqanı tanıdığını, lakin onunla görüşmək istəmədiyini bildirib. Belə olan halda Vanqanın qohumları yenidən telefon edib və bildiriblər ki, Vanqa deyir ki, Yeltsinin qol saatını gətirsinlər və həmin saat ona təqdim olunan kimi, hadisələri şərh edəcək. Yeltsin yenə razı olmayıb və Sergey Medvedyevin "Vanqanın yanına getsin, ya getməsin?" sualına isə Yeltsin deyib: "Özünüz həll edin". Nəhayət S.Medvedyev Bolqarıstana gəlib, Vanqa ilə görüşüb. Vanqa bildirib ki, 1996-cı il prezident seçkiləri Yeltsin üçün uğurlu olacaq, amma Yeltsin ürək xəstəliyindən əziyyət çəkəcək. Lakin deməyib ki, Yeltsin 1999-cu ildə istefa verəcək, onun yerinə kim gələcəyini və qarşıda dəhşətli Çeçen müharibəsi, illər sonra isə Rusiya Ukrayna savaşı olacağını deyə bilməyib. Əksinə, bildirib ki, Rusiya güclü dövlətə çevriləcək.

Qeyd edək ki, XX əsrin son dövründən bu günə kimi biz "Deyəsən, dünyanın axırıdır" sözlərini eşitməyə vərdiş olmuşuq. Bunu da o uzaq hadisələri görmə qabiliyyətli olmuş adamların, gah da indiki vaxtda sayı daha da çoxalan başqa "gələcəyi görənlərin", bəzən də əsassız açıqlamalar, uydurmalar danışan falçıların adları ilə bağlayır, beləliklə, ölkəmizin milyonlarla vətəndaşının, milyardlarla dünya əhalisinin təlaş, qorxu içində yaşamasına, iztirab, həyəcan keçirməsinə səbəb olurlar. Fikrimizcə, ən yaxşısı odur ki, elmlə təsdiqlənməyən faktların, əsassız deyilən söhbətlərin yayımlanmasında, tirajlanmasında heç kim iştirak etməsin. Əksinə, bizə lazım olan, bizi maraqlandıran məsələləri müqəddəs Quranda axtaraq. Quranın tələblərinə riayət etməyimiz bizə uğurlu nəticələr qazandırar.

Sonda bildirmək istəyirəm ki, insan fikirlərini oxumaq, ona psixoloji təsir göstərmək baxımından, hadisələri qabaqcadan görmək nöqteyi nəzərindən müasirlərimiz, tanınmış Volf Messinq (1899-1974) və həmyerlimiz Tofiq Dadaşov haqqında alimlər tərəfindən tədqiqatlar aparılıb, kitablar yazılıb. Messinqin belə qabiliyyətinə həsr olunmuş çoxseriyalı film çəkilib. Dadaşovun müstəsna dərəcəli qabiliyyəti haqqında hələ Sovetlər Birliyi dövründə məqalələr, kitablar yazılmışdı. Gələcəkdə ayrı bir məqalədə bu barədə söhbət açmaq maraqlı olar.

**Ramin MƏMMƏDOV,**
**Qəbələ şəhəri.**




QƏBƏLƏ

qəzetinə

**2025-ci ilin birinci yarısı üçün abunə yazılışı davam edir.**

**Yarımillik abunə qiyməti 20 manatdır.**

***Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.***

***Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.***

**Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226** (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

**Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.**


## Bayram təbriki

***Azərbaycan Respublikası Mediasiya Şurası Qəbələ Mediasiya Təşkilatı Azərbaycan xalqını 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni İl bayramı münasibəti ilə təbrik edir, millətimizə və dövlətimizə yeni ildə yeni-yeni qələbələr və uğurlar arzulayır.***



**Qış lövhələri.**


Redaktor Azad Məmmədov.

*TƏSİSÇİ:* Redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № AZ36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 900*